**A.M.ZEYNALOVA**
*e-mail: azeynalova847@gmail.com*

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

# YENİYETMƏLƏRİN MİLLİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ

***Açar sözlər:*** *Heydər Əliyev irsi, sosial mühit, milli vətənpərvərlik, dövlət müstəqilliyi, milli dövlətçilik.*
***Ключевые слова:*** *наследие Гейдара Алиева, социальная среда, национальный патриотизм, государственная независимость, национальная государственность.*
***Key words:*** *Haydar Aliyevs heritage, social environment, national patriotism, public independence, national statehood.*

Böyük tarixi şəxsiyyət 10 ildən artıq müstəqil Azərbaycan Respublikasının Prezidenti olmuş Ulu öndərimiz Heydər Əliyevin həyat və fəaliyyəti milli vətənpərvərlik, o cümlədən milli hərbi-vətənpərvərlik ideologiyasının və onun reallaşdırılması mexanizminin də açarıdır. Ulu Öndərin həyat yoluna qısa nəzər salaq. Ötən əsrin 40-cı illərinin ortalarında Azərbaycan Daxili İşlər Nazirliyi sistemində kapitan rütbəsində fəaliyyətə başlamış Heydər Əliyev az sonra dövlətdə ən vacib və həssas qurumlardan biri olan Təhlükəsizlik Sistemində məsul işə dəvət edildi.

Sonralar Dövlət Təhlükəsizliyi Komitəsində sədr müavini təyin edilən Heydər Əliyevə 1964-cü ildə general-mayor rütbəsi verildi və üç il sonra, 1967-ci ildə onu həmin Komitəyə sədr təyin etdilər. Göstərilən vaxta qədər Sovet siyasi sistemində heç bir azərbaycanlı bu vəzifəyə təyin edilməmişdi. Bundan iki il sonra isə Heydər Əliyevə Azərbaycana rəhbərlik kimi məsul bir vəzifə tapşırıldı.

Beləliklə, göstərilən bu vəzifələrin icrasında Heydər Əliyevin fəaliyyət dairəsi həmişə Doğma Azərbaycanımızın müdafiəsi və inkişafı ilə bağlı məsələlərlə bilavasitə bağlı olmuşdur.

Heydər Əliyev Türkiyə jurnalisti İrfan Ülkiyə 1992-ci ildə Naxçıvanda verdiyi müsahibəsində II dünya müharibəsinin nəticələri ilə əlaqədar olan, lakin son vaxtlara qədər açıqlanmayan bir faciə haqqında söyləmiş və bu məlumat işıq üzü görmüşdür: II dünya müharibəsində Türkiyədə sığınacaq tapmış müsəlman hərbi əsrlərdən 143 nəfər (onlardan 100 nəfərdən çoxu azərbaycanlı idi) Sovet hökümətinin təkidli tələbi ilə 1945-ci ilin sentyabrında İqdırdakı Baraltac körpüsündə rus hərbiçilərinə təhvil verilmiş və oradaca həmin hərbi əsirləri güllələyərək cəsədlərini Araz çayına atmışlar. (4, 18)

Heydər Əliyevin II dünya müharibəsindən sonrakı 60 illik fəaliyyəti rəhbər partiya və dövləti vəzifələrdə öz xalqının müqəddəratı ilə bilavasitə bağlı olmuşdur. Bu 60 illik fəaliyyətin ilk 50 ili Azərbaycanın SSRİ tərkibində olduğu dövrə aiddir.

Azərbaycanın iqtisadi qüdrətinin möhkəmlənməsi, xalqın mədəniyyətinin və təhsilinin, gənclərin hərbi xidməti məsələləri ilə bilavasitə məşğul olan general Heydər Əliyev üçün Vətəni müdafiə və milli-vətənpərvərlik məsələləri həmişə ön planda olmuşdur.

Ulu Öndərin birbaşa rəhbərliyi ilə Bakıda general C. Naxçıvanski adına hərbi məktəb yaradıldı. Azərbaycanlı gənclərin SSRİ-nin mərkəzi şəhərlərində və digər respublikalarında yerləşən hərbi məktəblərə təhsilə göndərilməsinə başlanıldı.

Heydər Əliyev Rusiya ərazilərində müxtəlif hərbi hissələrdə xidmət edən azərbaycanlı general və admirallardan Tofiq Ağahüseynovu, Hüseyn Rəsulbəyovu, Valeh Bərşadlını, Həmid Qasımbəyovu Azərbaycana xidmətə dəvət etdi. Onların respublikaya gəlməsi nəticəsində Azərbaycan gənclərinin hərbi hazırlığı işi xeyli gücləndi.

Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra Heydər Əliyevin Naxçıvanda olduğu üç illik dövrün (iyun 1990-iyun 1993) son iki ilində o, faktiki olaraq Ermənistan ilə müharibə vəziyyətində olan Azərbaycanın bu ayrılmaz ərazisinin xarici hücumlardan müdafiəsini çox ağır bir şəraitdə təmin etdi. 1991-ci ilin 7 sentyabrında Naxçıvanda Müdafiə Komitəsi yaradıldı. Nəzərə almaq lazımdır ki, Azərbaycanın Ermənistanla sərhəddinin 260 kilometri Naxçıvan ərazisi boyunca keçir. Deməli, Naxçıvanın müdafiəsi eyni zamanda Azərbaycanın müdafiəsi idi.

Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərliyə qayıtması (iyun 1993) dövrü xalqın və ölkənin tarixi müqəddəratında son dərəcə təhlükəli və məsuliyyətli bir dövr idi. Azərbaycanın müstəqilliyinin elan edilməsindən iki il keçməsinə baxmayaraq, ölkəyə Ermənistanın hərbi hücumları davam edirdi. Bunun qarşısını almaq üçün isə dövlətin əsas siyasi qüvvəsi olan milli ordunun yaradılması üçün heç bir iş görülmürdü. Həmin dövrdə Ermənistanın işğalçı ordusuna müqavimət göstərən əsas qüvvə Daxili İşlər Nazirliyinin rayon şöbələrinin növbə ilə göndərdikləri pərakəndə dəstələri və sərhəd rayonlarında təşkil edilmiş müdafiə dəstələri idi.

1993-cü ilin 3 oktyabrında xalqın böyük əksəriyyətinin həmrəyliyi ilə ölkə prezidenti seçilmiş Heydər Əliyev həmin ilin 2 noyabrında televiziya, radio və mətbuat vasitəsilə “Xalqa müraciət” ilə çıxış etdi. Bu müraciətində o, bütün xalqı milli ordu quruculuğunda fəal iştirak etməyə çağırdı. Prezident Heydər Əliyev bu müraciətində ölkədə hərbi-siyasi vəziyyəti təhlil edərək, xüsusi olaraq qeyd etdi ki, “Əgər insanların mənəviyyatında dəyişiklik olmasa, pozulmuş mənəviyyat bərpa edilməsə, insanlarda vətənpərvərlik, namus, şərəf, qeyrət hissi baş qaldırmasa, biz heç nə edə bilmərik. Buna görə də Sizə müraciət edirəm. İndi bizim ordumuz yaranmalı və qurulmalıdır... Bizim işimiz haqq işidir, gərək hər bir vətəndaş bunu özünün şərəfli borcu kimi qəbul etsin. Kim orduda qulluq edə bilərsə, qoy könüllü surətdə getsin. Kim özü qulluq edə bilmirsə, yanındakıları başa salsın ki, gəlib orduda xidmət etmək lazımdır”. Göründüyü kimi bu müraciət proqram xarakterli tarixi sənəddir.

Ulu Öndər Heydər Əliyev həmin müraciətdə qarşıdakı vəzifələri bütün qətiyyəti ilə belə şərh etdi: “İndi insanları ayağa qaldırmaq, milli vətənpərvərlik hissini yüksəltmək, xalqı səfərbər etmək əsas vəzifələrdən biridir”.

Beləliklə, ölkə Prezidentinin xalqa bu müraciətində Azərbaycan ordusunun yaradılmasının konkret yolları şərh edilmişdi. Həmin müraciət ərəfəsində Prezidentin xüsusi fərmanı ilə Dövlət Müdafiə Şurası yaradılmışdı və noyabrın 1-də həmin şuranın ilk iclası keçirildi. Noyabrın 7-də Prezident və Ali Baş Komandan Heydər Əliyev ordunun vəziyyəti ilə şəxsən tanış olmaq üçün cəbhə zonasına rəsmi səfər etdi. Prezidentin cəbhə zonasına ikinci səfəri dekabrın 11-12-də oldu. Belə səfərlər sonralar da olmuşdur.

Həmin dövrdə etdiyi çıxışların birində Heydər Əliyev demişdir: “Azərbaycan Sovet İttifaqının tərkibində olanda hər il sovet ordusuna 60 min nəfər çağrışçı yola salırdı. İndi Azərbaycan müstəqil dövlət olanda nə üçün bunu etmək mümkün olmasın? Nə üçün gənclərin bir hissəsi çağrışdan boyun qaçırır, orduda xidmət etmək istəmir, valideyinləri isə cürbəcür vasitələrlə onları hərbi xidmətdən azad etdirirlər? İndi adamları ayağa qaldırmaq, milli və vətənpərvərlik hissini yüksəltmək, xalqı səfərbər etmək əsas vəzifələrimizdən biridir”.

Ermənistan silahlı qüvvələrinin 1993-cü ilin dekabrında başladıqları yeni hücumlar istədikləri nəticəni vermədi və 1994-cü ilin 12 mayında cəbhə zonalarında atəşkəs haqda saziş əldə edildi. Bu saziş Azərbaycan ordusunun möhkəmləndirilməsi üçün şərait yaratdı. 2002-ci ilin iyununda Ölkə Prezidenti, Ali Baş Komandan Heydər Əliyev bu sahədə görülmüş işlərin yekunu olaraq bəyan etdi: “Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, tarixi nöqteyi-nəzərdən çox qısa bir zamanda Azərbaycanda güclü milli ordu yaranıbdır”.

Azərbaycanın Milli ordusu qardaş Türkiyə Respublikasının böyük köməyi nəticəsində xeyli gücləndi və NATO standartlarına uyğun olaraq inkişaf etdi və etməkdədir.

Respublika gənclərinin II forumundakı çıxışında ölkə Prezidenti Heydər Əliyev qeyd etdi ki, Azərbaycanın milli ordu quruculuğuna 1993-cü ilin noyabrından sonra başlamasına baxmayaraq, qısa bir müddətdə milli ordumuzu yarada bilmişik: “Azərbaycanda cəmiyyətdə,

xüsusilə gənclər arasında orduya münasibət müsbət mənada tamamilə dəyişibdir. Gənclər indi orduya həvəslə gedirlər, orduya xidmət edirlər, öz vətəndaşlıq borclarını yerinə yetirirlər və Azərbaycan ordusunu gücləndirirlər, inkişaf etdirirlər" (3).

Əraziləri nisbətən kiçik, lakin təbii sərvətlərlə zəngin olan ölkələrin müstəqil yaşamasına xaricdən müdaxilələr adətən daha çox olur. Bununla belə, Avropanın Avstriya, Hollandiya, Danimarka, İsveç, İsveçrə, Finlandiya kimi ərazicə kiçik ölkələrinin müasir müstəqilliyi göstərir ki, yüksək iqtisadi və intellektual nailiyyətləri olması nəticəsində belə ölkələrin milli müstəqilliyini təmin etmək mümkün olmuşdur. Azərbaycan üçün də bu yolun reallaşmasına imkanlar çoxdur və vacibdir. Azərbaycanın Avropa Şurasına qəbul olunması, onun müasir iqtisadi və siyasi gücü ABŞ ilə strateji əməkdaşlıq və müttəfiqliyi bu imkanlar üçün əsas vasitə və amildir.

## Ədəbiyyat

1. "Xalq" qəzeti, 4 fevral 1997.
2. Heydər Əliyevin televiziya ilə xalqa müraciəti. 2 noyabr 1993-cü il.
3. "Azərbaycan" qəzeti, 3 mart 1999.
4. İrfan Ülki, Qızıl Ulduzdan Hilala doğru (Heydər Əliyevin fırtınalı həyatı). Türkcədən tərcümə. B., 1994.
5. Əliyev H.Ə. Qətiyyətin təntənəsi. Bakı, 1996.

**А.М.Зейналова**

**Национально-потриотическое воспитании подростков в эпохи Гейдара Алиева**

***Резюме***

В статье расследованы возможности формирования с новым содержания национальных и нравственных ценностей, в том числе патриотизма в современной социальной среде Азербайджана, также раскрыто содержание патриотизма и национально – идеологического воспитания, формированного благодаря незаменимым и глобальным заслугам Гейдара Алиева. Статья имеет педагогическую, идеологическую и философскую важность.

**A.M.Zeynalova**

**Formation and modern situation of national patriotism in the social environment of Azerbaijan**

***Summary***

Article deals with the social environment of national and moral values, patriotism, including the possibility of the formation of the new content being investigated in this case, and global services free of charge, thanks to Heydar Aliyev formed nurturing patriotism and national ideological contents disclosed. Articles pedagogical, ideological and philosophical importance.

*Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev*

*Redaksiyaya daxil olub: 15.05.2022*